2026. Volume 10, Number 1 *Pages 26-39*

UDC: 811.222'373:39
DOI: https://doi.org/10.30546/09081.2026.1.1013

TALIŞ DİLİNDƏ OYKONİM VƏ AİLƏ-MƏİŞƏT LEKSİKASININ ETNOLİNQVİSTİK TƏHLİLİ

Dosent Şaiqə İSKƏNDƏROVA
Bakı Biznes Universiteti
iskenderovashaiqe@gmail.com
https://orcid.org/0000-0003-2613-8473
Bakı, Azərbaycan

MƏQALƏ HAQQINDA

Məqalənin tarixçəsi:
Daxil olub: 2025-11-20
Təkrar işlənmiş formada daxil olub: 2025-12-02
Qəbul edilib:2025-12-28
Onlayn əlçatandır:2026-06-19

Açar sözlər:
etnos, etnolinqvistika, leksik vahidlər, mədəni dəyərlər, etnotəfəkkür.

XÜLASƏ

Etnolinqvistika bir xalqın dili ilə onun mədəniyyəti, mentaliteti, dünyagörüşü arasındakı əlaqəni, linqvistik və etnik amillərin bir-biri ilə qarşılıqlı təsirini öyrənən dilçilik sahəsidir. Hər bir xalqın etnokulturoloji dəyərləri tarixi izləri özündə qoruyub saxlamaqla həmin xalqa məxsus mədəni dəyərləri çox geniş əks etdirir. İstənilən etnosun etnomədəniyyətinin formalaşmasında onun xalq olaraq taleyində yaşanan hadisələrin - müharibələrin, sürgünlərin, köçürmələrin, habelə etnosun həyat tərzinin, adət-ənənələrinin, inanclarının böyük rolu olur. Bu baxımdan talış xalqına mənsub olan söz və ifadələr də etnomədəniyyət göstəricisi kimi bu etnosun psixologiyasının, təfəkkürünün məhsuludur. Çünki xalqın etnomədəni səviyyəsi məhz milli sözlər vasitəsilə aydın şəkildə ifadə olunur. Etnotəfəkkür xalq yaddaşını özündə möhkəm qoruyub saxlayan ən güclü amil olduğundan talış dilinə məxsus leksik vahidlərin də etnolinqvistik təhlili həmin xalqın mədəni dəyərlərini, inkişaf tarixini izləməyə imkan verir.

2521-6333/© 2026 The Author(s). Published by Baku Engineering University.
This is an open access article under the CC BY 4.0 license (http://creativecommons.org/licenses/by/4.0/).

ETHNOLINGUISTIC ANALYSIS OF OIKONYMS AND FAMILY-HOUSEHOLD LEXICON IN THE TALYSH LANGUAGE

ABSTRACT

Ethnolinguistics is a branch of linguistics that studies the relationship between a people's language and their culture, mentality, and worldview, as well as the mutual and interaction of linguistic and ethnic factors. The ethnocultural values of every people, while preserving historical traces, reflect the cultural values specific to that community in the broadest sense. In the formation of the ethnoculture of any ethnos, a significant role is played by the events experienced in its historical destiny – such as wars, exile, and migrations-as well as by the people's way of life, customs and traditions, beliefs, and so on. From this perspective, the words and expressions belonging to the Talysh people are also products of the psychology and thinking of this ethnos and serve as indicators of its ethnoculture. The ethnocultural level of a people is most clearly expressed through national vocabulary. Since ethnothinking is the strongest factor that preserves national memory, the ethnolinguistic analysis of lexical units specific to the Talysh language makes it possible to trace the cultural values of this people and the history of its development.

Keywords: ethnos, ethnolinguistics, lexical units, cultural values, ethnothinking.

GİRİŞ

Tədqiqatın aktuallığı. Bütün başqa dil mənsubları kimi, talış xalqının dili də bu dilin daşıyıcıları üçün çox doğmadır. Xalqın tarixi, mədəniyyəti, mənəviyyatı və sairə dil vasitəsilə ötürüldüyündən dilə məxsus leksik vahidlərin etnolinqvistik təhlilinə zərurət yaranır. Talış xalqının etnokulturoloji dəyərlərini öyrənmək zərurəti isə talış dilinə məxsus söz və ifadələrin etnolinqvistik təhlilini aktuallaşdırır.

Tədqiqatın yeniliyi. Talış dilindəki leksik vahidlərlə bağlı etnoqrafik cəhətdən az-çox tədqiqat xarakterli yazılar olsa da, leksik vahidlərin etnolinqvistik təhlilinə, demək olar ki, çox az təsadüf olunur. Məqalədə ilk dəfə olaraq geniş aspektdə talış dilində oykonim və məişətlə bağlı leksemlər etnolinqvistik təhlilə cəlb olunmuş, onların etimoloji mahiyyəti açıqlanmış, qohum dillərlə müqayisəsi verilmişdir.

Tədqiqatın metodu. Məqalədə təsviri və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur.

Tədqiqatın məqsədi. Məqalənin məqsədi talış dilindəki oykonim və ailə-məişət leksikasının etnolinqvistik təhlili vasitəsilə həmin xalqın etnokulturoloji dəyərlərini öyrənmək və tanıtmaqdır.

Tədqiqatın nəticəsi. Etnolinqvistik təhlillə xalqın ruhunu, spesifik mədəniyyətini, düşüncəsini, səviyyəsini, tarixini, dünyabaxışını və digərlərini ortaya çıxarmaq olur. Ümumən, etnotəfəkkür xalq yaddaşını özündə möhkəm qoruyub saxlayan ən güclü amildir. Talış dili leksikasının əsasını talış dilinə məxsus dil elementləri təşkil etsə də, talış dilindəki leksik vahidlərin etnolinqvistik təhlili göstərir ki, bu dilin leksikasına təsir baxımından əsas yeri fars mənşəli leksik vahidlər tutur. Talış dilində türk mənşəli sözlərin çoxluğu isə bu bölgənin tarixən türk mədəniyyəti ilə bağlılığından irəli gəlir. Azərbaycan və talış dilli əhalinin əsrlər boyunca birgəyaşayışı və xalqların qaynayıb qarışması nəticəsində dillərin bir-birinə təsirini dil faktları da təsdiq edir.

ƏSAS HİSSƏ

Xalqın dili, mədəniyyəti və düşüncə tərzi arasındakı əlaqəni öyrənən etnolinqvistika dilçilik elminin bir sahəsi olaraq dünyanın qavrayışımıza necə təsir etdiyini, adət-ənənələrimizin və həyat tərzimizin dildə necə əks olunduğunu öyrənir. Başqa sözlə, etnolinqvistika bir xalqın dili ilə onun mədəniyyəti, mentaliteti, dünyagörüşü arasındakı əlaqəni, linqvistik və etnik amillərin bir-biri ilə qarşılıqlı təsirini öyrənən dilçilik sahəsidir. Bu dilçilik sahəsinin obyekti özündə xalqın mədəniyyətindən tutmuş həyatın ayrı-ayrı sahələrinə qədər hər şeyi əhatə edir.

Talış etnomədəniyyəti Azərbaycanın zəngin mədəni mənzərəsində öz qədimliyi və gözəlliyi ilə xüsusi yer tutur. Bu etnomədəniyyətin formalaşmasında Azərbaycan və fars dillərinə məxsus elementlərin də olduğu şübhəsizdir. Talış dili talış xalqının mədəni dəyərlərini özündə daşımaqla bu xalqın qədim mədəniyyətini sonrakı nəsillərə ötürən ən böyük vasitədir. Talış mədəniyyəti, dili, düşüncəsi və qavrayışını özündə əks etdirən etnolinqvistik amillər bu dildəki sözlərin daşıdıqları mənaları öyrənməyə imkan verir.

Məlum olduğu kimi, talış dili genealoji baxımdan Hind-Avropa dilləri ailəsinin İran dilləri qrupunun şimal-qərb yarımqrupuna daxildir. Digər dil ailələrində olduğu kimi, bu dil ailəsinə də daxil olan digər dillərlə talış dilindəki müəyyən sözlərin eyni kökdən olması inkarolunmaz faktdır. "Talış dilinin lüğət tərkibi, əsasən, İran dillərinə mənsub sözlərdən təşkil olunub. İran dilləri bir kök dildən yaransalar da, bu qrupa daxil olan ayrı-ayrı dillərin fonetik quruluşunda müxtəlif fərqlər özünü göstərir. Talış dilində də bu qrupa mənsub ayrı-ayrı leksik vahidlər bu

dilin fonetik qanunları əsasında xeyli dəyişikliyə uğramış və tam talış sözlərinə çevrilmişdir" (Əliyev, Mirzəyev: 2003, s.32).

"Bir xalqı digərindən onun adət-ənənələrlə, rituallarla, inanclarla, görüşlərlə, təsəvvürlərlə zənginləşmiş mənəvi mədəniyyəti fərqləndirir, bu isə, ilk növbədə, öz əksini dil və folklorda tapır" (Həmzəyeva: 2018, s. 97).

Dildə mövcud olan hər bir sözün yaranma və formalaşma tarixçəsinin olması şübhəsizdir. Həmin yaranma tarixini və sözün semantik inkişafını izləmək üçün etnolinqvistik təhlilə ehtiyac olur. Çünki hər bir sözün yaranması hər hansı bir tarixi, yaxud konkret hadisəni özündə ehtiva edir. Heç şübhəsiz, istənilən etnosun dilindəki leksik vahidlərin yaranmasında yerləşdiyi coğrafiya, təbiət, həmin etnosla bağlı baş verən hadisələr, digər amillər rol oynadığı kimi, eləcə də qonşu dillərin təsiri də inkarolunmazdır. N.Baskakov türk dillərində ərəb-fars mənşəli sözlərin varlığı ilə bağlı danışarkən qeyd edir ki, "ərəb və fars sözləri türk dillərinə islamla bərabər girib və əsas etibarilə dini, elmi, ictimai-siyasi terminologiya və eləcə də abstrakt anlayışlar sferasına aiddir"(Baskakov: 1966, s.47).

Şübhəsiz, eyni fikri talış dili haqqında da demək olar. Çünki bu dilin leksikasında da ərəb və fars dillərindən keçmə xeyli sözə təsadüf olunur ki, bunlar da eynilə Azərbaycan dilində olduğu kimi dini, fəlsəfi və s. bu kimi sferaları əhatə edir. Ümumən, "alınma prosesinin universal qanunauyğunluqlarının üzə çıxarılması hər hansı bir coğrafi ərazidə etnolinqvistik proseslərin izlənilməsi üçün mühüm nəzəri və təcrübi əhəmiyyət kəsb etməklə faydalı material verə bilir" (Tahirov: 2020, s.10).

İsmayıl Məmmədov Azərbaycan dilinin etnoqrafik mənzərəsindən bəhs edərkən yazır: "Etnoqrafiya xalqımızın tarixinin, dilinin özgünlüyünü, qədimliyini əks etdirən bir güzgüdür. Maddi və mənəvi mədəniyyət leksikasının öyrənilməsi, təqdimi tarixşünaslıq, soykök, folklorşünaslıq və dilçiliyə aid bəzi məsələlərin həllində vacibdir. Etnoqrafik leksikanın tədqiqi həmçinin Azərbaycan xalqının mənəvi dünyası ilə maddi mədəniyyəti, məişəti arasındakı vəhdəti, təbii mühitin və yaşayış tərzinin mənəvi varlığımızda əksini, dünyabaxışı və təfəkkür tərzinə münasibət məsələlərini açıb göstərməyə imkan verir"(Məmmədov: 2008, s. 9-10).

Hər hansı etnosun dilinə məxsus olan söz və ifadələri adətən ən çox məişət və mətbəx sferasına aid olan sözlər olur. Ümumiyyətlə, xalqın məişəti, ələlxüsus mətbəx mədəniyyəti etnos barədə tam olmasa da, fikir formalaşdıra bilir. Dillə mədəni irsin qarşılıqlı əlaqəsindən bəhs edən dilçilər etnolinqvistikanı mədəni dəyərlərin öyrənilməsi vasitəsi kimi qiymətləndirir (Махсумов: 2024, Сурикова О.Д., Толстая С.М: 2024, Lauren, S., Mullan, K., Goddard, C. 2025, Baker-Bell, A. 2020).

Çünki hər bir xalqın mədəni dəyərləri tarixi izləri özündə qoruyub saxlamaqla həmin xalqa məxsus etnokulturoloji mənzərəni çox geniş əks etdirir. İstənilən etnosun etnomədəniyyətinin formalaşmasında onun xalq olaraq taleyində yaşananların, həyat tərzinin, inanclarının rolu böyük olur. Ümumən, etnotəfəkkür xalq yaddaşını özündə möhkəm qoruyub saxlayan ən güclü amildir. Konkret xalqa mənsub olan söz və ifadələr etnomədəniyyət göstəricisi kimi yerli etnosun psixologiyasının, təfəkküründün məhsuludur. Xalqın etnomədəni səviyyəsi məhz milli sözlər vasitəsilə aydın şəkildə ifadə olunur. Odur ki, etnosa məxsus leksik vahidlərin etnolinqvistik təhlili bəzən hətta həmin xalqın inkişaf tarixini izləməyə imkan verir.

TALIŞ BÖLGƏLƏRİNDƏ BƏZİ OYKONİMLƏRİN ETNOLİNQVİSTİK TƏHLİLİ

Toponimika coğrafi adların mənşəyi, yaranma tarixi, onun tərkibindəki terminlərin izahından və düzgün yazılışından bəhs edir. Bu, hər hansı bir regionun, ölkənin və ya bölgənin coğrafi adlarını kompleks şəkildə öyrənən elm sahəsidir. "Xalq və etnosun tarixin istənilən mərhələsinə xas ictimai-siyasi, kulturoloji dünyagörüşü, həyatı, məişəti, adət-ənənələri barədə məlumatı həmin dövrə və məkana aid xüsusi adlardan, o cümlədən, toponimlərdən almaq mümkündür"(Hacıyeva: 2025, s.14). Toponimikanın müxtəlif bölmələri vardır ki, bunlardan biri də yaşayış məntəqələrinin adlarını bildirən oykonimlərdir. Yaşayış məntəqələrinin adları etnos, heyvan, bitki, su hövzələrinin adları ilə adlandırıla bildiyindən onlar etnooykonim, fitooykonim, zooykonim hidrooykonim kimi ifadə olunur.

Talış dili toponimləri, eləcə də oykonimləri bu xalqın təbiətlə, yaşadığı coğrafiya ilə bağlı əlaqələndirilmiş adlardır. Belə ki, əksər oykonimlər özündə ya yerləşmə yerini, ya mənzərəni, ya da ümumən, ətraf mühitlə bağlı təsvirləri ifadə edir. Talış bölgəsinin toponimik fonunu əsasən talış mənşəli toponimlər, oykonimlər təşkil edir ki, bunlar da öz növbəsində quruluşca daha çox mürəkkəb olub, iki komponentdən ibarətdir. Buradakı oykonimlərdə **kəon** - evlər, **di**– kənd, **von** - yer, **sə -** baş, yuxarı, **kujə** - məhəllə, **tuk** -bicar və s. topoformantları daha geniş yayılmışdır. Sonradan talış mənşəli topoformantlar müvafiq olaraq **kəon-** kəran, **von**- van, **kujə-** kücə, **ru-**rud və s. şəklinə salınaraq təqdim olunmuşdur. Ümumiyyətlə, talış mənşəli oykonimlərə müxtəlif topoformantların artırılması həmin oykonimin daha da dəqiqləşdirilməsinə xidmət edir. Yaşayış məntəqələrinin adlarına artırılmış talış mənşəli sözlərlə yanaşı, Azərbaycan mənşəli sözlərin də (**dərə, oba, daş, çay)** olması həmin oykonimlərin hibrid olmasını göstərir.

Aşağıda Azərbaycanın talış bölgəsində müəyyən oykonimlərin talış dilindəki variantlarına etnolinqvistik cəhətdən nəzər yetirək.

Sepoədi - Separadi (Lənkəran). Talış dilində **se** - üç, **poə** - para, hissə, **ə** - bitişdirici sait, **di** - kənd deməkdir. **Sepoədi** Azərbaycan dilinə tərcümədə **üç para kənd** mənasını verir. Əvvəllər üç hissədən-məhəllədən ibarət olduğu üçün yaşayış məntəqəsi belə adlandırılmışdır. Oykonim üç komponentdən ibarətdir: birinci komponent (**se-**üç)- say, ikinci komponent (**poə-**hissə) - və üçüncü komponent (**di-**kənd**)** sadə isimlə ifadə olunmuşdur, quruluşca mürəkkəbdir.

Boloədi - Boladi (Lənkəran). **Boladi** sözü **Boloədi** sözünün müəyyən fonetik dəyişməyə məruz qalmış variantıdır. **Boloədi** sözünün mənası **dərinlikdə, içdə yerləşən kənd** deməkdir. Talışca **bolo** bətn, **ə** - bitişdirici sait, **di** isə kənd deməkdir. Həqiqətən əvvəllər kəndin dörd bir tərəfi yüksəkliklərlə əhatə olunduğundan və kənd bu yüksəkliklərin ortasında, içində

yerləşdiyindən belə adlandırılmışdır. **Bolo** sözü Azərbaycan dilindəki anatomik səciyyəli **bətn** sözünün talış dilindəki ekvivalentidir. **Boloədi** oykonimi də yerləşmə yerinə görə bətnə bənzədiyindən belə adlandırılmışdır. Sonralar **Boloədi** adı **Boladi** kimi deyilməyə və yazılmağa başlanmışdır. Oykonim quruluşca mürəkkəbdir. Hər iki komponenti sadə isimlə ifadə olunmuşdur.

Nuədi - Nüvədi (Lənkəran). Bu oykonim Azərbaycan dilinə **yeni kənd** kimi tərcümə olunur. Talışca **nu** - yeni, **ə** - bitişdirici sait, **di**- kənd deməkdir. Bu yaşayış məntəqəsinin adı sonralar dəyişdirilmiş və Nuvədi adlandırılaraq Azərbaycan dilinə uyğunlaşdırılmışdır. Talış dili ilə eyni dil ailəsinə mənsub olan bir neçə dildə-ingiliscə **nyu**, rusca **novıy,** farsca **nou**, fransızca **nouvel, almanca neu kimi** oxşar fonetik variantlılıq bu sözlərin eyni kökdən formalaşmasını təsdiq edir. **Nuədi** sözü iki komponentdən ibarətdir. Bu oykonimin birinci komponenti sadə sifət, ikinci komponenti sadə isimlə ifadə olunmuşdur. Oykonim quruluşca mürəkkəbdir.

Velədi - (Lənkəran). **Velədi** oykonimi **vel** adlı yabanı bitkinin adı ilə bağlıdır. Belə ki, kəndin ərazisində **vel** adlı yabanı bitki kollarının çoxluğu buranın **Velədi** adlanmasına səbəb olmuşdur. **Vel**- yabanı bitkinin adı, **ə** - bitişdirici sait, **di-** kənd deməkdir. Bu isə o deməkdir ki, kəndin adı bitki adı ilə adlandırılmış fitooykonimdir. Azərbaycan dilinə **vel kollarının çox olduğu kənd** kimi tərcümə olunur. Quruluşca mürəkkəbdir. Hər iki komponenti sadə isimlə ifadə olunmuşdur.

Bırədi - (Lerik). Bu da yerləşdiyi ərazinin vəziyyəti ilə bağlı adlandırılmış oykonimdir. **Bır** -tikan kolu, **ə** - bitişdirici sait, **di**-kənd deməkdir. Belə ki, ətrafda tikan kollarının çoxluğu səbəbindən ərazi **Bırədi** adlandırılmışdır. Azərbaycan dilinə tərcümədə **tikan kollu kənd** kimi tərcümə olunur. Oykonim quruluşca mürəkkəbdir. Hər iki komponenti sadə isimlə ifadə olunmuşdur.

Məloədi - Mollakənd **(**Lənkəran) - **Məlo** - molla, **ə** - bitişdirici sait, **di-** kənd deməkdir. Vaxtilə bu kənddə mollalların çox olması səbəbi ilə oykonim belə adlandırılmışdır. Azərbaycan dilinə **mollaların olduğu kənd** kimi tərcümə olunur. Sonralar kəndin adı Azərbaycan dilinə kalka yolu ilə tərcümə olunaraq **Mollakənd** kimi deyilmiş və yazılmışdır. Oykonim quruluşca mürəkkəbdir. Hər iki komponenti sadə isimlə ifadə olunmuşdur.

Talış oykonimlərinin böyük bir qismi quruluşca mürəkkəb olmuş, lakin sonradan Azərbaycan dilinə uyğunlaşdırmaq məqsədilə fonetik cəhətdən dəyişikliyə uğradılmışdır. "Siyasi mühit, geopolitoloji amillər toponimlərin formalaşmasında öz sözünü deyə bildiyi üçün məkan adlarında mental və sosial qanunauyğunluqların pozulması da müşahidə edilir. Belə ki, politoloji amillərin təsiri ilə yaranan toponimlərdə etnokultural standartlardan yayınma, siyasi standartlara uyğunlaşma baş verir" (Hacıyeva: 2025, s.13). Talış dilində dəyişikliyə uğradılmış oykonimlərdən bir qismi sonu **kəon** (evlər) topoformantı ilə bitən oykonimlərdir ki, bu adların sonundakı **kəon** (evlər) sözü **kəran** hissəciyi ilə əvəz olunmuşdur. **Kəran** fars mənşəli olub, əsasən **nahiyə, kənar, tərəf** və ya **yer** mənalarını ifadə edir. Onu da qeyd edək ki, **kə** talışca ev, **on** isə cəm şəkilçidir. Oykonimlərin sonundakı **kəon** - (evlər) topoformantında səsdüşümü hadisəsi baş verərək **ə** saiti düşmüş, həmin söz **kon** variantında səslənmişdir. Talış bölgəsində sonu **kəran**la bitən çoxlu oykonimlər vardır ki, bunlar **kəon** ifadəsinin sonradan dəyişdirilmiş variantıdır. Artıq çoxdandır ki, bu oykonimlər bütünlüklə yeni bir fonetik tərkiblə yazılır. Əslində talış dilində bu oykonimlər quruluşca mürəkkəb olsalar da, dəyişdirilmiş variantda onlar yeni fonetik tərkibdəki quruluşuna görə sadə oykonimlərdir. Yeri gəlmişkən, **Lənkəran** toponimi də bu qəbildəndir. Aşağıda həmin oykonimlərdən bir neçəsinin **talış** dilindəki variantlarını etnolinqvistik cəhətdən nəzərdən keçirək.

Tırkəkon - Türkəkəran (Lənkəran). Türk etnonimi ilə bağlı formalaşan bu etnooykonim Azərbaycan dilinə tərcümədə **türklərin evləri** (**tırk**- türk, **kon-** evlər) mənasındadır. Belə ki, **tırk**-türk, **ə** - bitişdirici sait, **kon(kəon)-** evlər mənasındadır. Həmin yaşayış məntəqəsində daha çox Azərbaycan dilli əhali yaşadığından oykonim belə adlanmışdır. Quruluşca mürəkkəbdir. Hər iki komponenti sadə isimlə ifadə olunmuşdur. Hazırda Türkəkəran kimi yazılır.

Şıxəkon - Şıxəkəran (Lənkəran). **Şıx-**şeyx, **ə** - bitişdirici sait, **kon (kəon)** - evlər komponentlərinin birləşməsindən yaranan bu oykonim Azərbaycan dilinə **şeyxlərin evləri** kimi tərcümə olunur. Bu kənd tarixən Şeyx Zahid Gilaninin yaşadığı kənddir. Burada zaman-zaman şeyxlər yaşadığından kənd belə adlanmışdır. Oykonim quruluşca mürəkkəbdir. Hər iki komponenti sadə isimlə ifadə olunmuşdur. Hazırda Şıxəkəran kimi yazılır.

Səpenəkon-Səpnəkəran (Lənkəran). **Səpe**-yuxarı, **ə** - bitişdirici sait, **kon(kəon)-**evlər komponentlərinin birləşməsindən yaranmış oykonim Azərbaycan dilinə **yuxarıda yerləşən evlər** mənasına uyğun gəlir. Yerləşmə yerinə görə hündürlükdə olduğundan kənd belə adlandırılmışdır. Bu oykonimdə səsdüşümü hadisəsi olmuş, ikinci hecadakı **e** saitinin düşməsi ilə oykonim **Səpnəkon** kimi formalaşmışdır. Oykonim quruluşca mürəkkəbdir. Komponentlərdən birincisi sifət, ikincisi isimlə ifadə olunmuşdur. Hazırda Səpnəkəran kimi yazılır.

Seydəkon - Seyidəkəran (Lənkəran). Azərbaycan dilinə **seyidlərin evləri** kimi tərcümə olunan oykonim **seyd**- seyid, **ə** - bitişdirici sait, **kon(kəon) -** evlər komponentlərinin birləşməsindən yaranmışdır. Həmin yaşayış məntəqəsində seyidlər çox olduğundan oykonim belə adlanmışdır. Bu oykonimdə də səs düşümü hadisəsi baş vermiş və sözün ikinci hecasındakı sait düşmüşdür. Quruluşca mürəkkəbdir. Hər iki komponent sadə isimlə ifadə olunmuşdur. Hazırda Seyidəkəran kimi yazılır.

Şiəkon - Şiəkəran (Astara). Bu oykonim Astara rayonunda yaşayış məntəqəsidir. **Şiə** -məzhəb adı, **kon (kəon)**- evlər deməkdir. Azərbaycan dilinə **şiələrin evləri** kimi tərcümə olunur. Bəlli olduğu kimi, Astara rayonunda sünni məzhəbinə malik əhali də yaşayır. O səbəbdən şiə məzhəbinə məxsus olanların yaşayış yeri **Şiəkəon** adı ilə fərqləndirilmişdir. Oykonim quruluşca mürəkkəbdir. Hər iki komponent sadə isimlə ifadə olunmuşdur. Hazırda Şiəkəran kimi yazılır.

Viəvıl - Veravul(Lənkəran). Bu yaşayış məskəninin adı da Azərbaycan dilinə uyğunlaşdırılmış oykonimdir. Talış dilində **vıə** - söyüd ağacı, **vıl** isə gül (burada söyüd salxımı nəzərdə tutulur) deməkdir. Azərbaycan dilinə **salxım söyüdlük** kimi tərcümə olunur. Bu isə o deməkdir ki, həmin yaşayış məskənində salxım söyüdlər kifayət qədər çox olduğundan fitooykonim belə adlanmışdır. Bu fitooykonim də quruluşca mürəkkəbdir. Hər iki komponenti sadə isimlə ifadə olunmuşdur. Hazırda Veravul kimi yazılır.

Vılvon- Vilvan (Lənkəran). Bu oykonimin birinci tərəfi gülü (vıl) ifadə etdiyindən fitooykonim adlanır. Bu fitooykonim iki komponentdən ibarətdir. **vıl**- gül, **von** isə məskən, yer mənası bildirir. Azərbaycan dilinə **güllü-çiçəkli yer** kimi tərcümə olunur. Vilvan kəndi güllük-çiçəklik olduğundan yaşayış məntəqəsi belə adlanmışdır. "Vilvanda qədimdən qalma bir adətdir: təzə evin özülü qoyulmamışdan qabaq həyətdə gül kolları əkilir. Gəlin bəy evinə özünün yetişdirdiyi ətirli gül-çiçək dibçəkləri ilə qədəm basır, duvaqdan çıxdığı gündə həyətə gül toxumları səpir ki, az sonra ətraf gül-çiçək ətri ilə dolsun" (Əhədov: 2020. s.15). Oykonim quruluşca mürəkkəbdir. Hər iki komponent sadə isimlə ifadə olunmuşdur. Hazırda Vilvan kimi yazılır.

Ruəkəno - Rudəkənar (Masallı). Bu oykonim Azərbaycan dilinə **çay kənarı** kimi tərcümə olunur. **Ru-** çay, **ə** - bitişdirici sait, **kəno** - kənar deməkdir. Oykonim çay kənarında yerləşdiyinə görə belə adlanmışdır. Ruəkəno hidrooykonimi də Azərbaycan dilinə kalka yolu ilə tərcümə olunmuşdur. Azərbaycan dilinə tərcümə zamanı hidrooykonimin birinci komponenti olan **ru** (çay) sözü fars dilindəki variantı ilə əvəzlənmiş və nəticədə hidrooykonim **Rudəkənar** kimi formalaşmışdır. Quruluşca mürəkkəbdir. Hər iki komponent sadə isimlə ifadə olunmuşdur. Hazırda Rudəkənar kimi yazılır.

Kənoəvişə - Kənarmeşə (Lənkəran). Azərbaycan dilinə **meşə kənarı** kimi tərcümə olunan oykonimin birinci tərəfi **kəno**- kənar, **ə** - bitişdirici sait, ikinci tərəfi **vişə-** meşə deməkdir. Bu yaşayış məntəqəsi meşə ətrafında yerləşdiyindən belə adlanmışdır. Azərbaycan dilinə kalka yolu ilə tərcümə olunmuş oykonim quruluşca mürəkkəbdir. Birinci komponent sifət, ikinci komponent isimlə ifadə olunmuşdur. Hazırda Kənarmeşə kimi yazılır.

Tırkoba - Türkoba (Masallı). Bu etnooykonim iki komponentdən- **tırk**- türk və **oba** sözlərinin birləşməsindən yaranıb və mənası **türklərin yaşadığı yer** deməkdir. Masallı rayonunda məhz həmin yaşayış məskənində Azərbaycan dilli əhalinin yaşaması etnooykonimin Türkoba adlanmasına səbəb olmuşdur. Etnooykonim quruluşca mürəkkəbdir. Hər iki komponent sadə isimlə ifadə olunmuşdur.

Moğonojoba (Lənkəran). Bu oykonim Azərbaycan dilinə **muğanlıların yaşadığı yer, oba** kimi tərcümə olunur. Oykonimin birinci hissəsi olan **Moğon** Muğan toponiminin talışca səslənmə formasıdır ki, bunun da sonuna Azərbaycan dilində -lı (-li,-lu, -lü) şəkilçisini ifadə edən **- oj** şəkilçisi əlavə olunmuşdur. Bu isə oykonimin birinci hissəsinin quruluşca düzəltmə olduğunu göstərir. Demək, **moğonoj** muğanlı deməkdir. **Moğonoj** ifadəsinə Azərbaycan mənşəli **oba** sözünün əlavə edilməsi ilə **Moğonojoba** oykonimi yaranmışdır. Quruluşca mürəkkəbdir. Birinci komponenti düzəltmə, ikinci komponenti sadə isimlə ifadə olunmuşdur. Hibrid sözdür.

Osyodərə (Lerik). Bu oykonim Azərbaycan dilinə **dəyirman yerləşən dərə** kimi tərcümə olunur. Oykonim iki komponentdən - talış mənşəli **osyo** (dəyirman) və Azərbaycan mənşəli **dərə** sözlərindən yaranmış hibrid sözdür. Quruluşca mürəkkəb oykonimdir. Hər iki komponent sadə isimlə ifadə olunmuşdur.

Osyokujə - Osakücə (Lənkəran). Talış dilində **osyo** - dəyirman, **kujə** - məhəllə deməkdir. Həmin ərazidə dəyirman yerləşdiyindən yaşayış məskəni **Osyokujə** adlandırılmışdır. Azərbaycan dilinə tərcümədə **dəyirman olan məhəllə** mənasını verir. Oykonim quruluşca mürəkkəbdir. Hər iki komponent sadə isimlə ifadə olunmuşdur. Hazırda Osakücə kimi yazılır.

Bəlli olduğu kimi, talış etnomədəniyyətində əkinçiliyin xüsusi yeri olmuşdur. Burada tarixən taxılçılıq, çəltikçilik geniş yayıldığından bölgənin əksər yaşayış məskənlərində dəyirmanlar olmuş və əhalinin taxılüyütmə ehtiyacının aradan qalxmasına xidmət etmişdir. Dəyirmanın insanların məişətində oynadığı böyük rol əhalinin həmin yaşayış məntəqələrinin adının dəyirmanla bağladığına səbəb olmuşdur. Yuxarıda verilmiş Osyodərə və Osyokujə oykonimləri məhz belələrindəndir.

Osnəğəkujə - Osnəğəkücə (Lerik) - **Osnəğə** dəmirçi, **kujə -** məhəllə deməkdir. Kəndin adı Azərbaycan dilinə **dəmirçilər yaşayan məhəllə** kimi tərcümə olunur. Oykonimin adından bəlli olduğu kimi, yaşayış məntəqəsində dəmirçilər məskunlaşdığından belə adlanmışdır. Oykonim quruluşca mürəkkəbdir. Oykonimin birinci komponenti quruluşca düzəltmədir. Belə ki, **oson** (dəmir) sözündən **-əğə** (-çi) şəkilçisi vasitəsilə **osonəğə** sözü əmələ gəlmişdir. Bu oykonimdə də səsdüşümü hadisəsi olmuş, ikinci hecada **o** səsi düşərək ifadə **osnəğə** variantında qalmışdır**.** Oykonimin ikinci komponenti (kujə) quruluşca sadədir. Hər iki komponent isimlə ifadə olunmuşdur.

Piəkujə - Piəkücə (Lerik). Bu oykonim Azərbaycan dilinə **qocaların yaşadığı yer** kimi tərcümə olunur. **Pi** - qoca, **ə** - bitişdirici sait, **kujə** - məhəllə deməkdir. Bu ərazidə yaşayanlar əsasən qocalar olduğundan oykonim belə adlanmışdır. Oykonim iki sözdən ibarət olmaqla quruluşca mürəkkəbdir. Birinci komponent sifət, ikinci komponent isimlə ifadə olunmuşdur.

Qamətuk - Gərmətük (Lənkəran). Talış dilində iki sözdən **qam**- isti, **ə-** bitişdirici sait və **tuk** (çəltik sahəsi) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Azərbaycan dilinə **isti çəltik sahəsi** kimi tərcümə olunur. Talış bölgəsində tarixən çəltikçilik geniş yayılmış təsərrüfat sahəsi olduğundan onun əkilmə yerlərindən biri də **Qamətuk** olmuşdur. Sonralar bu oykonim də digər talış mənşəli oykonimlər kimi fonetik tərkibcə müəyyən dəyişikliyə uğradılmış, **Gərmətük**

şəklində deyilmiş və yazılmışdır. Bu oykonimin birinci komponenti, yəni **gərm** farsca **isti** deməkdir, Oykonimin birinci komponenti talışca eyni mənanı verən variantla deyil, farsca olan variantı ilə ifadə olunmuşdur. Oykonim quruluşca mürəkkəbdir. Tərkibindəki birinci komponent sifət, ikinci komponent isimlə ifadə olunmuşdur. Hazırda Gərmətük kimi yazılır.

Daştətuk - Daşdatük (Lənkəran). Oykonim **daşt** və **tuk** sözlərinin birləşməsindən əmələ gəlmişdir. Talışca **daşt** - çöl, **ə** - bitişdirici sait, **tuk** isə çəltik əkilən yer mənasını verir. Azərbaycan dilinə **çəltik əkilən çöl** mənalarını verir. Bu oykonim də çəltikçiliklə bağlı formalaşmış addır. Çəltik sahəsinin yerləşmə yerinə görə belə adlandırılmışdır. Oykonim quruluşca mürəkkəbdir. Hər iki komponenti sadə isimlə ifadə olunmuşdur.

Peştətuk - Peştətük (Lerik). Bu oykonim Azərbaycan dilinə **çəltik sahəsinin arxası** kimi tərcümə olunur. **Peşt** - arxa, **ə** - bitişdirici sait, **tuk** - çəltik sahəsi deməkdir. Bu oykonim də yuxarıdakı iki oykonim kimi çəltikçiliklə bağlı formalaşmış addır. Yaşayış məskəni çəltik sahəsinin yerləşmə yerinə görə belə adlanmışdır. Quruluşca mürəkkəbdir. Komponentlərin birincisi sifət, digəri isə sadə isimdir.

Sığdaşt- Sığdaş (Masallı). Bu oykonim iki komponentdən ibarətdir. Birinci komponent talışca **sığ** (daş), ikinci komponent isə farsca **daşt**(çöl, düzən) sözlərinin birləşməsindən yaranmışdır. Oykonim **daşlı çöl** mənasını verir. Kəndin yerləşdiyi ərazidə çınqıl daşlarının çoxluğu kəndin belə adlanmasına səbəb olmuşdur. Zamanla **Sığdaşt** oykoniminin ikinci komponenti olan **daşt** sözündə səs düşümü hadisəsi olmuş, sonuncu səs **(t)** düşmüş və beləliklə, sözün ikinci komponenti **daş** variantında qalmışdır. Bu oykonim də quruluşca mürəkkəbdir. Hər iki komponent sadə isimlə ifadə olunmuşdur. Hazırda Sığdaş kimi yazılır.

Çəyoru - Çayrud (Lerik). Bu kəndin adı talışca **Çəyorudur** ki, Azərbaycan dilində mənası **o tərəfdən çay** deməkdir. **Çəyo** - o tərəfdən, **ru** isə çay deməkdir. Bu hidrooykonim sonradan fonetik dəyişikliyə məruz qalmış, birinci komponenti olan **çəyo** ifadəsi **çay** sözü kimi, ikinci komponenti olan **ru**(çay) sözü isə həmin sözün farsca variantı (**rud**) kimi deyilmiş və beləliklə, hidrooykonim **Çayrud** kimi formalaşmışdır. **Çəyoru** sözü quruluşca mürəkkəbdir, birinci komponenti zərf, ikinci komponenti sadə isimlə ifadə olunmuşdur. Hazırda Çayrud kimi yazılır.

Rvarud- (Lerik). Oykonim Azərbaycan dilinə **qeyb olmuş, gözdən itmiş çay** tərcümə olunur. **Riviə**-yəni **qeyb olmuş ya qeybə çəkilmiş, ru (rud**)- çay deməkdir. Həqiqətən kəndin relyefinə baxanda bu, qabarıq şəkildə görünür. Kəndin tən ortasından axan çay qədimdə çox güclu axsa da, sonralar bu çay sanki qeybə çəkilmişdir. Ona görə talışlar bu yerə **Riviəru** adını vermişlər. Daha sonralar kəndin adı **Rvarud** kimi formalaşmışdır. Göründüyü kimi, hidrooykonimin həm birinci, həm də ikinci tərəfi dəyişikliyə məruz qalmış, talış variantından fərqli formada ifadə olunmuşdur. Belə ki, birinci tərəfdəki **riviə** feili sifəti heç bir məna bildirməyən **rva** hissəciyinə çevrilmiş, ikinci tərəfdə olan **ru** (çay) sözü isə talış variantında deyil, həmin sözün fars dilindəki variantı ilə **(rud)** ifadə olunmuşdur. Söz quruluşca mürəkkəbdir. Birinci komponent feil, ikinci komponent sadə isimlə ifadə olunmuşdur.

Ümumiyyətlə, talış dilində bir qisim hidrooykonimin tərkibində işlənən **ru** (çay) sözü həmin hidrooykonimin dəyişilmiş variantında fars dilindəki qarşılığı olan **rud** şəklinə salınmışdır. Rva**rud**, Çay**rud**, **Rud**əkənar və s. kimi oykonimlər bu sıradandır.

Azərbaycan və talış dilli əhalinin əsrlər boyu birgəyaşayışı və xalqların qaynayıb qarışması nəticəsində dillərin bir-birinə təsiri yaşayış məntəqələrinin adında da özünü büruzə verir. Yuxarıdakı etnolinqvistik təhlildən də göründüyü kimi, talış oykonimlərinin bir qisminin

tərkibində Azərbaycan dilinə mənsub olan sözlər də yer alıb. Belə ki, quruluşca mürəkkəb olan bəzi oykonimlər tərkibinə görə həm Azərbaycan, həm də talış sözlərinin birləşməsindən yarandığından hibrid oykonimlərdir. Yuxarıda adları keçən Moğonoj**oba**, Osyo**dərə**, Se**para**di, Sığ**daş**, **Çay**rud və s. kimi oykonimlər bu qəbildəndir.

TOY MƏRASİMİ İLƏ BAĞLI LEKSİK VAHİDLƏRİN ETNOLİNQVİSTİK TƏHLİLİ

Mərasimlərlə bağlı leksika hər hansı xalqa məxsus adətləri və inancları ifadə edir ki, bu da hər bir xalqın düşüncəsində çox erkən tarixdən formalaşmışdır. Mərasim leksikasına toy, yas və bayram mərasimlərini aid etmək olar ki, bunların hər biri bütün xalqlarda olduğu kimi, talış xalqının da məişətində xüsusi yer tutur. Təbii ki, istənilən mərasimə dair çoxlu leksik vahidlər, ifadələr var ki, bunların hər birinin linqvistik təhlilə ehtiyacı var. Ailə qurmaq prosesinin bütün məqamlarının hər birinin konkret adı var və toy mərasimi ilə bağlı leksik vahidlərə də məhz bu proseslərin adları daxildir. Leksik vahidlərə nəzər salınca xalqın adət və ənənələrinin konkret mənası haqqında ətraflı məlumat almaq olur.

Sipirişəplo. **Sipiriş (sipi**- ağ, **riş**- saqqal) ağsaqqal, **ə-** bitişdirici sait, **plo** sözü isə plov deməkdir. **Sipirişəplo** sözü Azərbaycan dilinə **ağsaqqalplov** kimi tərcümə olunur. Talış dilində bu sözün ikinci hecasında səsdüşümü hadisəsi olmuş və söz **siprişəplo** kimi tələffüz olunur. Bu mərasim nişanlanandan dərhal sonra oğlan evinin qız evinə gəlib nişanı ağsaqqallar səviyyəsində rəsmiləşdirmək məqsədilə təşkil edilmiş məclisdir. Bu zaman oğlan evindən gələn qonaqlar arasında ağsaqqallıq səlahiyyəti verilmiş biri ilə qız evindən eyni səlahiyyətdə olan bir nəfər süfrə arxasında bir-birinin əlini sıxaraq hər iki tərəfə xeyir-dua verir. Bu mərasim **siprişəplo** adlanır. Bu söz üç komponentdən ibarətdir. Komponentlərdən birincisi (**sipi**) sifət, ikinci(**riş)** və üçüncüsü(**plo**) isimdir. Söz quruluşca mürəkkəbdir. Bu sözlə paralel cənub bölgəsində Azərbaycandilli əhali **elçiplov** termini də işlədir ki, bu, talış dilindəki ekvivalentindən daha çox işləkdir.

Kuləxonçə. Talışca **kul** sözü çoxmənalı sözdür. Onun bildirdiyi mənalardan biri də **ilaxır çərşənbə** mənasıdır. **Kuləxonçə** sözü İlaxır çərşənbədə oğlan evinin qız evinə apardığı xonçaya deyilir. Həmin xonçada bütün ərzaqlarla yanaşı, talış bölgəsində ən çox yeyilən kütüm balığı da mütləq olmalı və onun ağzına qızıl üzük qoyulmalıdır. Bunsuz mümkün deyil. Bu söz quruluşca mürəkkəbdir. Birinci komponent **kul (**ilaxır çərşənbə), ikinci komponent isə Azərbaycan dilində də eynilə işlənən **xonça** sözüdür. Bu söz də talış və Azərbaycan dilinə məxsus sözlərin birləşməsindən yarandığı üçün hibrid sözdür.

Çılə xoncə. Çillə xonçası. Talış bölgələrində çillə gecəsindən bir qədər əvvəl nişanlı qızların evinə **çılə xonçə** (çillə xonçası) göndərilir. Xonçada rəngarəng lentlərlə bəzədilmiş qarpızla yanaşı, bayram çörəkləri, geyim və digər hədiyyələr də yer alır. Çillə (Çılə xonçə)xonçasında da balığın olması vacibdir. Bu da bərəkət, var - dövlət, uğurlu nikah, uzunömürlülük arzusunu ifadə edir. Leksik vahid iki komponentdən ibarət olub I növ təyini söz birləşməsi kimi formalaşmışdır. Komponentlərin hər ikisi isimlə ifadə olunmuşdur.

Hırdəbo. Bu söz Azərbaycan dilinə **xırda yük** kimi hərfi tərcümə olunur. Sözün birinci komponenti Azərbaycan dilindəki **xırda** sözüdür ki, bu, talış dilinə uyğunlaşdırılaraq **hırdə** formasında deyilmişdir, **bo** isə yük deməkdir. Talış bölgələrində **hırdəbo** adlanan bu mərasim qız toyundan əvvəl keçirilir. Bu zaman gəlin üçün alınmış irili - xırdalı bütün hədiyyələr oğlan evindən qız evinə aparılır. Bu mərasim çalğı ilə müşayiət olunur. Müasir dövrdə eyni mərasim daha çox **nişan** adı ilə keçirilir. **Hırdəbo** sözü iki komponentin birləşməsindən əmələ gəldiyi

üçün mürəkkəb sözdür. Tərəflərdən birincisi sifət, ikincisi isə isimdir. Eyni zamanda bu sözün komponentlərdən birinin Azərbaycan **(hırdə-xırda)**, digərinin talış dilinə mənsubluğuna görə hibrid sözdür.

Səloçi. **səlo** - dəvət, **-çi** isə Azərbaycan dilində sözdüzəldici şəkilçidir. **Səloçi** - dəvət edən deməkdir. Toya bir neçə gün qalmış səloçi evbəev gəzib hamını toya dəvət edərdi. **Səloçi** sözü quruluşca düzəltmədir. Belə ki, talış dilinə məxsus sadə kökdən (səlo) və Azərbaycan dilinə məxsus - çi şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. İki dilə məxsus elementin birləşməsindən formalaşdığı üçün hibrid sözdür.

Vəyuvarde. Vəyuvarde ifadəsi iki komponentdən ibarətdir: **vəyu** - gəlin, **varde** - gətirmək deməkdir. Talışlarda toy günü gəlingətirmə prosesi belə olur: çalğıçıların müşayiəti ilə oğlan evinin adamları maşınlara oturur və maşın karvanı qız evinə gedərək gəlini oğlan evinə gətirir. Bu proses **vəyuvarde** adlanır. Bu söz də quruluşca mürəkkəbdir. Sözü əmələ gətirən hər iki komponent talış dilinə məxsusdur. Bu sözün birinci tərəfi isim, ikinci tərəfi isə feillə ifadə olunmuşdur.

Mehir. Gəlini ata evindən aparanda onun anasına müəyyən məbləğ verilir ki, bu, **mehir** adlanır. **Mehir** fars mənşəli sözdür. Həm talış, həm də Azərbaycan dilində işlənir. Bu sözlə yanaşı, talış dilində **südpulu** ifadəsi də işlənir ki, bu söz Azərbaycan dilinə məxsusdur. "Adətin adına "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlinir. Deməli, etnomədəniyyətdə qız alarkən onun valideynlərini maddi cəhətdən dəyərləndirmək mühüm yer tutmuşdur. Əlbəttə, dəyişən inanclar bu adətin ortadan qalxmasına səbəb ola bilməmişdir". (Qurbanova: 2014 s.174). Südpulu sözü ilə mehir sözü arasında məna baxımından heç bir fərq yoxdur. Söz quruluşca sadədir, isimlə ifadə olunmuşdur.

QOHUMLUQ BİLDİRƏN LEKSİK VAHİDLƏRİN ETNOLİNQVİSTİK TƏHLİLİ

Talışların etnik mədəniyyətlərinə xas spesifik xüsusiyyətləri var ki, onlardan biri də burada böyük ailə formatının hələ də qalmasıdır. Böyük ailə formatı (yolaxiyzon) özlüyündə yaxın-uzaq qohumlardan ibarət ailə qruplarına bölünür ki, bunlar da **tobiyə** adlanır. Talış ailələrində ailə dəyərlərinə - böyüklərə ehtiram, ağsaqqal və ağbirçəklərə çox yüksək diqqət və hörmət kimi ənənələr bu gün də qorunur. Qohumluq dəyərləri qədim və zəngin olduğu üçün qohumluq münasibətlərini bildirən leksik vahidlər də yaranmasına görə dildə ən qədim sözlər hesab edilir. Çünki qohumluq münasibətlərini ifadə edən leksik vahidlər etnosun formalaşması ilə birbaşa bağlıdır. Qohumluq münasibətlərinin adlarının linqvistik cəhətdən araşdırılması həmin dilin həm də müəyyən mənada tarixinə işıq salmaq deməkdir. Qohumluq münasibətlərini bildirən leksik vahidlər mənsub olduğu etnosun mədəni səviyyəsini, dünyagörüşünü ifadə etdiyindən dilin leksikasında yer tutmuş bu sözlərin təhlili etnolinqvistik baxımdan xüsusi olaraq əhəmiyyətlidir. Talış dilində qohumluq münasibətlərini bildirən bir neçə leksik vahidin etnolinqvistik baxımdan təhlilinə nəzər yetirək.

Jen - Jen Azərbaycan dilinə **arvad, həyat yoldaşı** kimi tərcümə olunur. Bu söz talış dili ilə qohum dillərdə bu mənanı daşıyan sözlərlə eyni kökdəndir. Belə ki, rus dilində **jena,** kürdcə **jin**, farsca **zan, żona** (tələffüzü: *jona*) və s. kimi fonetik variantlar fikrimizi təsdiq edir. Talış dilində bu söz bəzi ləhçələrdə **jen,** bəzi ləhcələrdə isə **jin** kimi deyilir. Quruluşca sadədir, isimdir.

Merd - Bu söz Azərbaycan dilinə **kişi** olaraq tərcümə olunur. Qohum dillərdən olan fars dilində **mard**, tat dilində **mərd**, rus dilində **muj** kürd dilində **mer** şəklində ifadə olunur. Talış dilində **merd** sözü Azərbaycan dilində güçlü cinsin nümayəndəsi olan **kişi** mənasını ifadə

etməklə bərabər, həm də mərdlik, qətiyyət, ərlik xüsusiyyətlərini də bildirir. **Merd** sözü quruluşca sadədir, isimdir.

Şu(şuə)-Azərbaycan dilinə **ər** kimi tərcümə olunan bu sözün qohum dillərdən yalnız fars dilində olan variantı ilə təqribən eyni olduğunu söyləmək olar. Çünki farsca **şoher** kimi səslənən bu ifadə talışca müəyyən fonetik dəyişikliyə uğrayaraq **şu-şuə** kimi səslənir. Bu ifadələrin eyni kökdən əmələ gəldiyini isə fonetik tərkibcə yaxınlıq təsdiq edir. Quruluşca sadədir, isimdir.

Pıə - Bu söz Azərbaycan dilinə **ata** kimi tərcümə olunur. Qohum olduğu dillərlə eyni kökdən olan bu söz rusca **papa,** farsca **pədər,** tatca **piyər,** fransızca **pere** kimi fonetik variantlarda ifadə olunur. Quruluşca sadədir, isimdir.

Moə - Bu söz Azərbaycan dilinə **ana** kimi tərcümə olunur. **Moə** sözü də Hind-Avropa dil ailəsinə mənsub dillərdə fonetik tərkibcə yaxınlığı ilə seçilir. Belə ki, rusca **mama**, ingiliscə **mother,** farsca **madər,** tatca **madər**(mada), almanca **mutter** (mutti), fransızca **mere,** polyakca **matka** və s. kimi ifadələrin talış dilində **moə** sözü ilə eyni kökdən formalaşdığının sübutudur. Quruluşca sadədir, isimdir.

Boə - Bu ifadə Azərbaycan dilində **qardaş** kimi tərcümə olunur. Bu söz talış bölgələrinin bir qismində, daha konkret desək, şimal ləhcələrində - Lənkəran və Masallıda daha çox **boə**, bəzi cənub ləhcələrində isə **bovə** formasında səslənir. Hind-Avropa dil ailəsinə mənsub müəyyən dillərdə **boə** sözü təqribən eyni kökdən formalaşdığından həmin dillərlə oxşar fonetik tərkibə malikdir. Belə ki, polyakca **brat** almanca **bruder,** ingiliscə **brother,** farsca **bəradər**, rusca **brat** və s. kimi oxşar fonetik variantlarda olması bu sözün eyni kökdən formalaşdığını bir daha təsdiqləmiş olur. Quruluşca sadədir, isimdir.

Hovə - Azərbaycan dilinə **bacı** kimi tərcümə olunan bu söz bəzən **hov** kimi də işlənir. Bu sözün qohum dillər olan fars və tat dillərindəki variantları ilə eynilik təşkil etdiyini söyləmək olar. **Hovə** sözü farsca **xahər,** tatca isə **xuvar** kimi səslənir. Quruluşca sadədir, isimdir.

Vəyu - Bu söz Azərbaycan dilinə **gəlin** kimi tərcümə olunur. Bu ifadə talış dilində **vəyu**, yaxud da **vəvu** kimi işlənir. Quruluşca sadədir, isimdir. **Vəyu** sözü aşağıdakı mənalarda işlənir:

-vəyu - status;

-vəyu - yeni ailə quran qadın;

-vəyu - qohumluq mənasında;

-vəyu - bir ailəyə nikah yolu ilə gəlmiş qadın.

Verilmiş müxtəlif statusların hər biri qohum dillərdə ayrı-ayrı sözlərlə ifadə olunursa, talış dilində bu statusların hamısı eyni sözlə ifadə olunur. Maraqlıdır ki, Azərbaycan dilində də **gəlin** sözü bütün statuslarda eyni fonetik variantda çıxış edir. Bu baxımdan talış dilindəki bu hala Azərbaycan dilinin təsiri kimi də baxmaq olar. Bu sözün daşıdığı mənalardan da göründüyü kimi, söz daha çox toy(**vəyə**) mərasimi ilə assosasiya olunan bir ifadədir. Belə ki, istənilən toyun sonunda hər hansı bir evə gəlin aparılır. Təsadüfi deyildir ki, hər iki söz fonetik cəhətdən də bir-birinə çox yaxındır. **Vəyu** (gəlin) - **vəyə** (toy) deməkdir.

Həsı - Bu söz Azərbaycan dilinə **qaynana** kimi tərcümə olunur. Qohum dillərdən yalnız tat dilinin şimal ləhcələrində işlənən variantla eynilik təşkil etdiyini söyləmək olar. Çünki talışca **həsı** kimi səslənən bu söz tatcanın şimal ləhcələrində **xəzır** kimi səslənir. Leksik vahiddəki yaxın samit (h-x, s-z) keçidləri sözün eyni kökdən olduğunu təsdiq edir. Quruluşca sadədir, isimdir.

Həsuə - Bu leksik vahid Azərbaycan dilinə **qaynata** kimi tərcümə olunur. Yalnız tat dilində **xüsur** kimi səslənən ifadə talışca **həsuə** kimi səslənir ki, bu da hər iki dildəki ifadənin eyni kökdən gəldiyini deməyə əsas verir. Quruluşca sadədir, isimdir.

Amu - Bu söz Azərbaycan dilində **əmi** mənasını verir. **Amu** (əmi) atanın qardaşına deyilir. Qohum dillərdən olan tacik dilində **ammak,** tatca və farsca **amu** şəklində ifadə olunan bu leksik vahid talış dilində də **amu** kimi səslənir. Mənşəcə fars dilinə məxsus olan **amu** sözü ən yaxın qohum dillərə keçdiyi kimi, Azərbaycan dilinə də keçmiş və bu dildə **əmi** kimi deyilir və yazılır. Talış dilində də Azərbaycan dilində olduğu kimi, həm birbaşa atanın qardaşına, həm də hörmət əlaməti olaraq qohum olmayan yad birinə **amu** deyə müraciətlə işlənilə bilir. **Amu** sözü talış dilində qohumluq əlaqələrini bildirən əsas ifadələrdən biridir. Quruluşca sadədir, isimdir.

Maraqlıdır ki, talış dili ilə qohum olan dillərdə digər leksemlərə nisbətən məhz qohumluq bildirən leksik vahidlərin oxşar fonetik variantlılığı daha çox nəzərə çarpır. Qohumluq bildirən leksik vahidlərin fonetik cəhətdən oxşarlığı isə onların məhz eyni kökdən formalaşdığı fikrini bir daha təsdiqləmiş olur.

Onu da qeyd edək ki, talış dilində işlənən qohumluq terminlərinin bir qismi Azərbaycan dilindəki terminlərdir ki, bunlar talış dilində də olduğu kimi işlənir. Bunlara **xala, bibi, yeznə, dadaş, lələ** və s. kimi ifadələri göstərmək olar. Bu isə iki etnosun əsrlərlə birgəyaşayışının nəticəsi olaraq özünü göstərən dil faktıdır.

TALIŞ MƏTBƏXİ İLƏ BAĞLI LEKSİK VAHİDLƏRİN ETNOLİNQVİSTİK TƏHLİLİ

Azərbaycanın ən dadlı və maraqlı mətbəxlərindən biri talış mətbəxidir ki, bu mətbəx bütün növ bişmişlərin müxtəlifliyi və unudulmaz dadı ilə seçilir. Talış mətbəxinin zənginliyi yalnız yeməklərlə məhdudlaşmır, eyni zamanda onun ətrafında formalaşan qida mədəniyyəti də özünəməxsusdur. Talış mətbəxi, eyni zamanda yalnız bir yemək mədəniyyəti deyil, həm də talış xalqının tarixini, təbiətlə əlaqəsini və zəngin mədəniyyətini əks etdirən bir irsdir. Bu mətbəx həm sadə, həm də zəngin ləzzətlərlə doludur və hər yemək, talış xalqının zəhmətkeşliyi və təbiətə olan bağlılığının bir ifadəsidir.

Talış bölgəsinin şah yeməyi plovdur. **Plov** sözü mənşəcə hind dilinə məxsusdur. Hind dilindən fars dilinə, ordan da bir çox dillərə, o cümlədən talış dilinə keçmişdir. Plov sözü **bişmiş düyü** mənasını verir. Bu da təsadüfi deyil. Talış əhalisinin çox qədim məşğuliyyət növlərindən biri də çəltikçilik olmuşdur ki, bu da birbaşa talışların süfrə mədəniyyətinə geniş şəkildə daxil olmuş və etnopeşə olaraq nəsildən-nəslə ötürülmüşdür. Düyünün qaynadılaraq dəmə qoyulub müxtəlif plov çeşidinin hazırlanması talış etnosunun özünəməxsus mədəniyyət nümunəsidir. **Plov** sözü quruluşca sadədir, nitq hissəsinə görə isimdir.

Ləvəngi. Bu, talış ənənəvi mətbəxinin ən məşhur yeməklərindən biridir. Ləvəngi qoz, soğan və alça turşusundan ibarət içliyin adıdır. Bu içliklə doldurulan balıq və ya toyuq yeməyi də eyni adla- **ləvəngi** adlanır. Toyuq və ya balığın içi çəkilmiş qoz, suyu sıxılmış soğan və turşunun birləşməsindən olan içliklə doldurularaq bişirilir. Ləvəngi əsasən təndirdə bişirilir. Talış dilində **ləvənqin** kimi səslənən bu söz Azərbaycan dilində **ləvəngi** kimi yazılır və deyilir. Belə ki, talış dilində həm **ləvə** sözünün sonuna, həm də **gi (qi)** sözünün sonuna **"n"** samiti artırılmışdır ki, bu da **ləvən**- qarınlı, **gin**- boyunlu mənasını verir. Söz quruluşca mürəkkəbdir, çünki iki sözün birləşməsindən yaranmışdır: **ləvə-** qarın, **gi**- boyun deməkdir. Hər iki komponent isimlə ifadə olunmuşdur.

Ləvəngi talışca **ləvə** sözündən yaranaraq qarına qoyulmuş konkret içlik mənasını ifadə etsə də, bu sözün mənasına və yaranmasına dair digər yanaşmalar da mövcuddur. A. Nəzərov **ləvəngi** sözünü belə açıqlamışdır: "Ləvənqin" sözünün ilk mənası aşağıdakı kimi izah oluna bilər. Toyuğun boynu, başın kəsildiyi yerdən bədənə qədər olan hissəsi, çinədan boşluğundan qarnına salınırdı. Buradan "ləvə" və "qi" sözlərinin birləşməsi nəticəsində "ləvəqi" sözü yaranmışdır. Yəqin bir müddət bu cür bişirilən sonra bişmişin daha dadlı olması üçün qoz-soğan qarışığından istifadə olunmuş və o cür bişmə də "ləvəqi" adlanmışdır. Çünki burada da alınan kütlə "ləvəqi" kimi toyuğun qarnına salınmışdır. Sonralar isə səsartımı nəticəsində söz "ləvənqin" və ya "ləvənqi" formasında bizə gəlib çatmışdır" (Nəzərov: 2021, s.239).

Səbzikuku. Talış mətbəxində **səbzikuku** xırda doğranmış göyərti ilə yumurtadan hazırlanmış yeməkdir. "Göyərti istifadə edilən yeməklərə türklər kükü, farslar səbzi deyirlər. Bir yeməyin adında ikisinin də işlənməsi həmin bölgədə yaşayan etnik cəhətdən rəngarəng əhalinin sıx təmasından irəli gəlir. Bu, həmin bölgədə etnik qaynayıb-qarışmanın nəticəsidir"(Qurbanova: 2014, s.194). **Səbzikuku** sözü quruluşca mürəkkəbdir, hər iki komponenti isimlə ifadə olunmuşdur.

Onu da qeyd edək ki, **səbzikuku** ifadəsi ilə paralel talışlar göyərti ilə hazırlanan küküyə talışca **moğnəkuku** (yumurta küküsü) də deyirlər. Söz iki komponentdən ibarət olmaqla quruluşca mürəkkəbdir. Komponentlərin hər ikisi isimdir. İstər səbzikükü, istərsə də moğnəkuku sözləri hibrid sözdür. Çünki komponentlərdən biri (səbzikükü) fars və Azərbaycan, digəri isə (moğnəkuku) talış və Azərbaycan dilinə məxsusdur.

Digər bir kükü növü isə **vizəkuku** (qozküküsü) adlanır ki, bu da qoz və sıxılmış söğana bir neçə yumurtanın qatılması ilə bişirilir. **Viz** - qoz, **kuku** - kükü deməkdir. Bu söz də hibrid sözdür. Quruluşca mürəkkəbdir. Hər iki komponent isimdir.

Torə. Bu talış mətbəxinə məxsus yüngül yaz yeməyinin adıdır. Bu söz **torə- (tər),** yəni **yeni yetişmiş** mənasında olub müxtəlif göyərti növlərindən hazırlanmış yemək növüdür. Belə ki, **torə (tərə)** Azərbaycanın cənub bölgəsində bitən yazda yeni yetişmiş müxtəlif növ çöl bitkilərindən və həyətdə yetişdirilən müxtəlif göyərtilərin qarışığından hazırlanan dadlı, vitaminli yeməkdir. Daha çox yazın əvvəllərində hazırlanan bu yemək yeni yetişmiş çöl bitkiləri və həyət göyərtilərinə düyü, yağ, sarımsaq, yumurtanın əlavəsi ilə hazırlanır. Quruluşca sadədir, isimlə ifadə olunmuşdur.

Ovduğ - Ovduğ **ov** (su) və **du**(ğ) (ayran) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Sözün hər iki komponenti talış dilində fonetik dəyişikliklə ifadə olunur. Belə ki, **ov** sözü farsca **ab** sözündən, **du** sözü isə farsca **duğ** sözündəndir. Talışlar bu sözü **ovdu** kimi ifadə edirlər. Azərbaycan dilində bu söz **ovduğ** kimi, yəni sözün ikinci komponentinin eynilə fars dilində olduğu variantında yazılır. Bu söz talış dilində həm də **duov** şəklində işlənir. **Ov** Azərbaycan dilində su, **du(ğ)** isə ayran deməkdir. **Ovdu(ğ)** suyun qatıqla qarışığından yaranan içkidir. Ancaq qatıqla suyun qarışıgından əmələ gələn ayranın **ovduğ-duov** olması üçün ayrana duz, giləmərzə (və ya quru nanə), su qatılır və alınan maye **ovdu(ğ)** adlanır. **Ovdu(ğ)** sözü Cənubu Azərbaycan ərazisində azərbaycanlıların dilində də eyni formada işlənməkdədir. Bu söz quruluşca mürəkkəbdir, komponentlərin hər ikisi isimdir.

Çılmə kəbob - Çölmə kabab**.** Bu gün çölmə kabab dediyimiz yeməyin ilkin adı **çılmə kabab** olmuşdur. Mənası Çillə axşamına aid olan və məhz **həmin gecə bişirilən kabab** deməkdir. Bu məhz Çillə gecəsi bişirilən və süfrəyə qoyulan yemək olaraq yarandığından adına **çıl**mə (**çılə**

sözü ilə bağlı belə adlandırılmışdır) **kabab** deyilmişdir. Sonralar isə bu yemək təkcə Çillə gecəsi deyil, bütün başqa məqamlarda da bişirilmişdir. Çılmə kabab talış mətbəxinin ən ləziz yeməklərindən biridir. Buna **çılmə kəbob** da**, çılmə ləvəngi** də deyilir. Bu yemək qaz, ördək, toyuq və çöl quşlarının qazanda xüsusi qaydada bişirilmiş kabab formasıdır. Bu zaman ev və çöl quşlarının içinə ləvəngi doldurularaq bişirilir. Yemək növünün adı iki komponentdən formalaşmış I növ təyini söz birləşməsidir. Komponentlərin birincisi sifət, ikincisi isə isimlə ifadə olunmuşdur.

Ümumiyyətlə, talış etnotəfəkküründə oykonimlərlə, məişətlə, adət-ənənə və mərasimlərlə bağlı leksemlər daha çox zahiri məqamlarla bağlı adlandırılmışsa, mətbəxlə bağlı leksemlər daha çox yeməyin tərkibinə əsasən adlandırılmışdır.

Beləliklə, talış dilinə məxsus leksemlərin etnolinqvistik təhlilinə əsasən söyləmək olar ki, hər bir xalqın dili kimi talış dili də talış xalqının mentalitetinin özünəməxsus cəhətlərini özündə əks etdirir. Bu xalqın məişəti, adət-ənənələri və mərasimləri kimi ən qədim kulturoloji faktları əks etdirən ifadələrin dərin qatında talış dilinə məxsus leksik vahidlər durur.

Dilin leksik mənzərəsi etnosun həm tarixinin, həm də təfəkküründən elə güzgüsüdür ki, bu güzgüdən xalq bütünlüklə görünə bilir. Zamanla varlığını itirən, yaxud dəyişən adət - ənənə, xalqın həyatında baş verən yeniliklər etnosun dəyişən psixologiyasında da özünü göstərir. Bütün dillərdə olduğu kimi, talış dilində də leksik vahidlərin etnolinqvistik təhlili bu xalqın tarixi və etnomədəni inkişafını izləməyə imkan verir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

Baskakov, N.A. (1966) Тюркские языки. Москва: Наука, 324 с.

Baker-Bell, A. (2020) Linguistik Justice: Black Language, Literasy, İdentity and Pedagogy. USA: Routledge, 300 p.

Əliyev, Ə, Mirzəyev, E. (2003) Talış dilinin leksikası. Bakı: Nurlan, 82 s.

Əhədov, E. (2020) Günəşə boylanan Vilvan, Bakı: OL MMC, 648 s.

Əmirova, R. (1990) Etnoqrafik toponimlərin yaranma yolları /leksik-semantik üsul//

Azərbaycan dili müasir mərhələdə. Bakı: Elm, 167 s.

Qurbanov, A. (2019)Azərbaycan dilçiliyi problemləri. I cild, İstanbul: İmak, 384 s.

Qurbanova, İ. (2014) Azərbaycan dili dialekt və şivələrinin etnolinqvistik təhlili. Bakı: Bilik, 239 s.

Махсумов, Р. (2024) Этнолингвистика как самостоятельное направление антропоцентрической лингвистики. Журнал: "Зарубежная лингвистика и лингводидактика" Спецвыпуск, Том 2, №6/S.

Məmmədov, İ. (2008) Azərbaycan dilinin etnoqrafik leksikası. Bakı: Elm, 292 s.

Nəzərov, A. (2021)Tolışi folklor ijən bəzi leksik vahidon izoh. (Talış folkloru və bəzi leksik vahidlər). Bakı: 294 s.

Lauren, S., Mullan, K., Goddard, C. (2025) Eksplorations in Applied Ethnolinguistiks: Words, Cultures and Global Perspectives. Switzerland: Palgrave Macmillan, 568 p.

Сурикова, О.Д., Толстая, С.М. (2024) "Причитанья Северного края" Е.В Борсова: исследования и материалы к словарю. Москва: Индрик, 696 с.

Tahirov, İ. (2020) Etnolinqvistik proseslərin öyrənilməsində dialekt və şivə faktlarının rolu. "Dilçilik araşdırmaları" jurnalı. №2.

Hacıyeva, T (2025) Toponimlərin poetikləşməsinin etnokultural, mental və sosial: dəyərləri. Journal of Baku University-philolojy and pedaqoqy. Volume 9, Number 1. p 10-17. Ords, https://doi.org/10.30546/09081.2025.1.5002

Həmzəyeva L. (2018) Etnolinqvistika. "Kitabşünaslıq və nəşriyyat işi" № 1(19), s.95-98.